Azərbaycan Respublikası Prezidenti
yanında Elmin İnkişafı Fonduna

# ELMİ HESABAT

Mən, Ağamalıyeva Lətifə Fərzəli qızı Fondun 4-cü mobillik qrantının qaliblərindən biri olmuşam. Qrant mənə Avstriyanın Vyana şəhərində keçirilən **"IECMSA-2018 3rd International Eurasian Conference on Mathematical Sciences and Applications"** konfransında iştirak etmək məqsədi ilə verilmişdir.

Mənim məruzəm konfransın "Diskret riyaziyyat" bölməsinə salınmışdır. Bu bölmədə diskret riyaziyyat sahəsində dünyada tanınmış alimlərdən Prof. L. Ventura, Prof. W. Racugno (İtaliya), Prof. P.Macedo (Portiqaliya), K.C. Madan (Bəhreyn), K. Borkowska (Çexiya) iştirak edirdilər. Mənim məruzəm maraqla qarşılandı və diskussiyalara səbəb oldu.

Bundan başqa konfransın plenar məruzəçiləri kimi Prof. H.Stachel (ABŞ), Prof. J.V. Mill, V.K. Kalantarov (Türkiyə) və başqalarının çıxışları çox maraqlı oldu.

Mən konfransın gedişində ixtisasıma uyğun mütəxəssislərlə aldığım nəticələr və apardığım tədqiqat işləri ilə bağlı müzakirələr apardım. Bu müzakirələrin nəticəsi kimi biz gələcəkdə əməkdaşlığın perspektivləri, birgə layihələrin hazırlanması istiqamətində müəyyən razılığa gəldik.

Hesab edirəm ki, Fondun dəstəyi ilə bu tədbirdə iştirakım mənim gələcək elmi pedaqoji fəaliyyətimə müsbət təsir edəcəkdir.

Dəstəyə görə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fonduna təşəkkür edirəm.